Azərbaycan.- 2021.- 16 mart. S. 8.

# Şuşa qalasının Gəncə qapısı




**Şuşa qalasının üç əsas qapısından biri Gəncə qapısı və ya Çiləbörd qapısıdır. Bu qapı qalanın şimal tərəfində yerləşir. Qalanın digər qapıları isə İrəvan və Ağoğlan qapılarıdır. Hər üç qapının adı tarixi mənbələrdə, eləcə də Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd olunub. Hələ XIX əsrin 60-cı illərində bu qapılar Şuşanın ictimai həyatında mühüm rol oynayırdı.**

Məlumata görə, Ağoğlan və İrəvan qapıları ali şəxslərin keçişi və yük daşınması üçün, Gəncə qapısı isə arabaların keçməsi üçün nəzərdə tutulmuşdu. Bəzi mənbələrdə qala divarlarının dördüncü divarının da olmasından bəhs edilsə də, onun yeri və adı müəyyənləşdirilməyib.

Hələ qədim dövrlərdən memarlar şəhərlə tanışlığın onun qala divarlarından başladığını, şəhərin memarlığını qala divarlarının müəyyən etdiyini nəzərə alırdılar. Buna görə memarlıq-kompozisiya həlli baxımında Şuşa qalasının əsas - şimal qapısı zəfər tağını xatırladır.

Pənahəli xanın hakimiyyəti dövründə inşa edilmiş qapı XVIII əsrdən etibarən Gəncə və ya Çiləbörd qapısı adlandırılıb. Şuşa qalasının bu qapıdan çıxan yolu bu şəhəri Gəncə şəhəri və Qarabağ xanlığının Çiləbörd mahalı ilə birləşdirirdi.

Qarabağ xanlığının Rusiya imperiyasına birləşdirilməsindən sonra Gəncənin Yelizavetpol adlandırılması (1804) ilə əlaqədar Gəncə qapısı da Yelizavetpol qapısı adlandırılmağa başlayıb.

Şuşa qalasının şimal qapısı qala divarlarının ortasında - Ağoğlan və İrəvan qapılarının arasında yerləşir. Şuşa qalasının digər qapıları ilə müqayisədə Gəncə qapısı dövrümüzədək daha yaxşı vəziyyətdə qalıb.

Şahmatvari və küknar düzülüşlü ağ və qara daşlardan toxunmuş hörgü, qalanın dərin oxvarı tağlı girişini effektiv şəkildə əhatə edir. Giriş üzərində dağılmış yalançı pəncərə çıxışlarının simmetrik izləri var. Onların arasında mazğallar və ya qala bacaları yerləşir. Yalançı və həqiqi pəncərə çıxışlarının sıralanması o dövr memarlığında ictimai binaların fasadlarının həll edilməsi üçün geniş istifadə edilən üsul olmaqla, memarlar tərəfindən mülki memarlıqdan qaynaqlanıb.

Şəhərin qala divarları üzərində ucalan Gəncə qapısının düz səthi, müəyyən şəhərsalma xüsusiyyəti daşımaqla, ona parad görünüşü verir. Düşmənlərin əsas qala qapısına rahat yaxınlaşmasına mane olmaq üçün qapı qarşısında bir tərəfi divarın fasadına dirənən müdafiə divarı inşa edilib. Qala tərəfdən qapıya gözətçilər üçün tikilmiş xüsusi yer birləşir.

Gəncə qapısının ikinci yarusunda silahlar saxlanılırdı. Qərb tərəfdən qapıya üç yaruslu dairəvi qüllə birləşir. Qüllənin müxtəlif yerlərində pərakəndə şəkildə mazğallar yerləşdirilib.

Sovet hakimiyyəti illərində Şuşa qalasının şimal hissəsində, həmçinin Gəncə qapısında bərpa işləri aparılıb.

Şimal qapısı rayonunun memarlıq simasını yaxınlıqda yerləşən, daş çardaq kimi həll edilmiş, daş çadırla örtülmüş bulaq tamamlayır.

*Z. FƏRƏCOVA,*
*"Azərbaycan"*